AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

"DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ"
KAFEDRASI

**"İnzibati hüquq" fənni üzrə**

# M Ü H A Z İ R Ə

(Bakalavriat səviyyəsi üzrə qiyabi təhsilalanlar üçün)

## Mövzu № 6. "Daxili işlər sahəsində dövlət idarəetməsi"

**Vaxt: 2 saat**
*Mühazirə: 2 saat*

**Tərtib etdi:** "DİO-nun inzibati fəaliyyəti" kafedrasının rəisi, polis polkovniki, h.ü.f.d., dosent Rafiq Nəcəfquliyev

Mühazirə kafedranın iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.

Protokol № "___"______________ 2017-ci il.

Dəyişiklik və əlavə edilib: _______________ 2018-ci il.

Əlavə edilib: _______________ 2019-cu il.

Dəyişiklik və əlavə edilib: _______________ 2020-ci il.

**Bakı – 2016**

## Mövzu № 6. Daxili işlər sahəsində dövlət idarəetməsi

**Plan:**

**Giriş**

1. Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati - hüquqi formaları.
2. Daxili İşlər Nazirliyi - daxili işlər sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Daxili işlər orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

**Nəticə**

**İstifadə və tövsiyə edilən mənbələr:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.
2. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
3. "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
4. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
5. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
6. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
7. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
8. "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2018.
9. "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu.
10. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2001-ci il tarixli 518 №-li Fərmanı.
11. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 may 2002-c il tarixli 906 №-li Sərəncamı.
12. "Elektroşok vasitələrini saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ olan polis orqanlarının vəzifəli şəxslərinin Siyahısı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 260 nömrəli Qərarı.
13. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Q 29-001-20 nömrəli 28 sentyabr 2020-ci il tarixli Qərarı: "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli 1166 nömrəli Fərmanının icrasının təmin edilməsinə dair.
14. Dərs vəsaiti. İnzibati hüquq (xüsusi hissə). V. Abışov, R. Nəcəfquliyev. Bakı, 2016.
15. Dərslik. İnzibati hüquq. R. Nəcəfquliyev. Bakı, 2018.

16. Г.С.Владимирович. Органы внутренних дел как элемент конституционно-правового механизма обеспечения прав и свобод человека и гражданина в Российской Федерации. Диссертация на сосискание ученой степени кандитата юридических наук. Хабаровск – 2014.

17. www.e-qanun.az; www. president.az; www. din.gov.az; www. preslib.az

## Giriş

Azərbaycan Respublikasında idarəetmənin bütün sahələrində olduğu kimi, dövlətin hüquq-mühafizə fəaliyyəti sahəsində də müvafiq hüquqi islahatlar həyata keçirilir. Belə ki, idarəetmənin xüsusi sahələrindən olan daxili işlər sahəsində idarəetmənin həyata keçirilməsi ilə bağlı dünyanın qabaqcıl təcrübəsi öyrənilməklə aidiyyəti normativ hüquqi tənzimləmə mexanizmi formalaşdırılmışdır.

Qeyd edilən sahəvi idarəemənin təşkili və həyata keçirilməsi məqsəd ilə qəbul edilən normativ hüquqi aktlar sırasında "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunları, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə", "Daxili İşlər Nazirliyinin Əsasnaməsi" xüsusilə qeyd edilə bilər.

Mövzuda daxili işlər sahəsində idarəetməni həyata keçirən orqanların, eləcə də Azərbaycan Respublikasında ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunla müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Daxili İşlər Nazirliyinin (bundan sonra - DİN) və onun orqanlarının əsas vəzifələri, hüquqi vəziyyətləri və s. açıqlanması nəzərdə tutulur.

Respublikamızda aparılan demokratik, hüquqi dövlət quruculuğu prosesində daxili işlər orqanlarının üzərinə düşən vəzifə və funksiyaların tam, vaxtında və effektiv yerinə yetirilməsi daxili işlər orqanları sistemində aparılan hüquqi islahatların məqsədyönlü aparılmasından, daxili işlər orqanları sistemində idarəetmənin nəzəri və təcrübi cəhətdən elmi əsaslarla təşkilindən və həyata keçirilməsindən bilavasitə asılıdır. Bu məqsədlə daxili işlər orqanlarının bütün əməkdaşları tərəfindən idarəetmə fəaliyyəti ilə bağlı olan ümumi müddəaların mənimsənilməsi, onların təcrübi cəhətdən düzgün və eyni qaydada həyata keçirilməsi, bu sahədə mövcud olan bacarıq və vərdişlərin əldə edilməsi və onların təkmilləşdirilməsi idarəetmənin vacib şərtlərindən biridir.

Sizlərin diqqətinə xüsusilə çatdırmaq istərdim ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan polisinin 95 illiyi münasibətilə keçirilən tədbirdə demişdir ***"...İnsanlara polis əməkdaşları tərəfindən daim diqqət, qayğı göstərilməlidir, kobudluğa yol verilməməlidir...Cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə aparılmalıdır...***

Mühazirənin girişində qeyd edilənlərə əsaslanaraq daxili işlər sahəsində dövlət idarəetməsi haqqında müvafiq biliklərin təcrübi fəaliyyət üçün mühüm vacibliyini diqqətinizə çatdırıb, veriləcək məlumatların gələcək peşə fəaliyyətiniz üçün əhəmiyyətini vurğulamaqla, mühazirə mövzumuzun birinci sualının müzakirəsinə keçid edirik.

**Sual 1.** Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati - hüquqi formaları

Sosial sistem kimi çıxış edən daxili işlər orqanları dövlət idarəetmə sistemində müstəqil yer tutur və mühüm rola malikdir. Daxili işlərin idarəedilməsi hüquqi təbiəti baxımından digər sahələrdə və bölmələrdə olduğu kimi müəyyən məqsədə yönəldilmiş təşkiletmə fəaliyyətindən ibarətdir. Hüquq elminə dair tədqiqatlarda qeyd olunur ki, bu sahədə fəaliyyət göstərən orqanlar dövlət aparatının əhaliyə daha yaxın olan hissəsidır. Onların əməkdaşları cari vəziyyətdən, ölkə ərazisində yaşayan insanların ehtiyac və tələblərindən xəbərdar olmaqla, şəxsiyyətin konstitusiya və digər hüquqlarının qorunması və təminatında ilk iştirakçı kimi çıxış edirlər.

Daxili işlər sahəsində dövlət idarəetməsi dedikdə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının mühafizəsi, onların cinayət və digər hüquqazidd qəsdlərdən qorunması, həmçinin yol hərəkəti təhlükəsizliyinin təşkil edilməsi üzrə səlahiyyətli dövlət orqanlarının icraedici-sərəncamverici fəaliyyəti başa düşülür.

Qeyd edilən sahədə idarəetmə vasitəsilə insan və vətəndaş hüquq və azadlıqlarının mühafizəsi, onların cinayət və digər hüquqazidd qəsdlərdən qorunması, eləcə də dövlət orqanlarının və ictimai qurumların fəaliyyəti, vətəndaşların əməyi və istirahəti üçün normal şəraitin yaradılması mümkün olur.

Daxili işlər sahəsində idarəetmənin məzmunu müəyyən edilmiş formalarda və müvafiq metodlarla həyata keçirilən idarəetmə məqsədlərinin, vəzifələrinin və funksiyalarının realizəsi üzrə fəaliyyətdən təşkil edilmişdir. Daxili işlər sahəsində idarəetmənin əsas məqsədi ölkədə hüquq qaydasının və qanunçuluğun təmin edilməsindən, vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquq, azadlıq və qanuni mənafelərinin mühafizə edilməsindən ibarətdir.

Daxili işlər sahəsində idarəetmənin əsas məqsədləri bu sahədə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlıqla və digər hüquqpozmalarla mübarizə, həmçinin mülkiyyətin mühafizəsi üzrə idarəetmənin vəzifələrində konkretləşdirilir.

Daxili işlər sahəsində idarəetmə sosial idarəetmənin növlərindən biri olaraq idarəetmə vəzifələrinin yerinə yetirilməsi üzrə fəaliyyətin müəyyən istiqamətləri kimi başa düşülən bir sıra funksiyalara malikdir. İdarəetmənin bu funksiyaları qismində ümumi, xüsusi (əsas) və təminedici növləri fərqləndirilir.

İdarəetmənin ümumi funksiyaları - bütövlükdə idarəetmənin bütün sisteminə və onun ayrı-ayrı təbəqələrinə xas olan funksiyalardır. Onlara planlaşdırma, proqnozlaşdırma, təşkiletmə, nizamasalma, uçot (qeydiyyat), analiz (təhlil), yoxlama (nəzarət) aid edilə bilər.

İdarəetmənin xüsusi (əsas) funksiyaları - sosial fəaliyyətin ayrı-ayrı sahələrinə təşkiletmə təsiri göstərir. Bu isə həmin sahələrdə müxtəlif növ işlərin yerinə yetirilməsinə kömək edir. Bir çox mənbələrdə xüsusi funksiyalar əsas funksiyalar adlandırılır. Çünki idarəetmə subyektlərinin vəzifə və funksiyaları bilavasitə onların vasitəsilə gerçəkləşir. Həmin funksiyalara aiddir:

- vətəndaşların həyatının, hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin cinayətkar qəsdlərdən mühafizəsi;

- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi;

- cinayətlərin və digər hüquqpozmalarının xəbərdar edilməsi və qarşısının alınması;

- cinayətlərin tez və tam açılması, cinayətlərin və digər hüquqpozmalarının törədilməsinə kömək edən səbəb və şəraitlərin aradan qaldırılması;

- vətəndaşların qanuna tabe olma hərəkət tərzi, qanunların dönmədən yerinə yetirilməsi və sivil cəmiyyətin birgə yaşayış qaydalarına hörmət etmələri ruhunda tərbiyə edilməsi;

- müqavilə əsasında mülkiyyətin mühafizə edilməsi və s.

İdarəetmənin təminedici funksiyaları ümumi və xüsusi funksiyaların realizəsi prosesinə xidmət edir.

Bu funksiyalar qrupuna aşağıdakılar aiddir:

- kadr;
- maddi-texniki (təsərrüfat);
- maliyyə;
- kargüzarlıq və s.

Daxili işlər sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları bir-biri ilə yanaşı və qarşılıqlı əlaqədə mövcud olur.

Daxili işlər sahəsində dövlət idarəetməsinin aşağıdakı prinsipləri fərqləndirilir:

- insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət;
- qanunçuluq;
- humanistlik;
- təkbaşçılıq  və s.

Daxili işlər sahəsində idarəetmə formaları təşkilat daxili məsələlərin həll edilməsi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sisteminin daxilində rəhbərliyin həyata keçirilməsi, tabeçilik üzrə aşağı təbəqəli orqanlarla və ayrı-ayrı əməkdaşlarla rəhbərliyin həyata keçirilməsi, həmçinin  daxili işlər orqanlarının xarici fəaliyyətinin (idarəetmənin xüsusi funksiyalarının) realizəsi üçün istifadə olunur.

Qanunvericilik və icra hakimiyyəti orqanları daxili işlər sahəsində ümumi rəhbərliyi həyata keçirirlər. Daha dəqiq desək, onlar Azərbaycan Respublikasının daxili işlər sahəsindəki dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edirlər.

Qanunvericilik orqanı (Milli Məclis) - Azərbaycan Respublikasının bütün ərazisində həyat fəaliyyətinin digər sahələrində olduğu kimi, daxili işlər sahəsində də münasibətlərin normativ tənzimlənməsini təmin edir, həmçinin daxili işlər sahəsində idarəetmənin təşkilini qanunvericiliklə tənzimlənməsini həyata keçirir, vətəndaşların konstitusion hüquqlarının, azadlıqlarının və vəzifələrinin qanunvericiliklə tənzimlənməsini həyata keçirir və daxili işlər sahəsində dövlət hakimiyyət orqanlarının və yerli özünüidarəetmə orqanlarının fəaliyyət əsaslarını, ümumi prinsiplərini müəyyən edir.

Azərbaycan Respublikasının Prezidenti - dövlətin başçısı olmaqla daxili işlər sahəsində münasibətlərin tənzimlənməsinə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin

edilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə yönəldilmiş fərman və sərəncamlar qəbul edir; Azərbaycan Respublikası Konstitusiyasının 111 və 112-ci maddələrində göstərilən hallarda Konstitusiyanın 119-cu maddəsinin 29-cu bəndinə əsasən, ölkə ərazisində və ya onun ayrı-ayrı yerlərində hərbi vəziyyət və ya fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Milli Məclisin təsdiqinə verir.

Azərbaycan Respublikasının Prezidenti daxili işlər nazirini vəzifəyə təyin edir və vəzifədən azad edir, həmçinin hüquq qaydası və ictimai təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində istiqamətləndirilmiş tədbirlər görür.

Azərbaycan Respublikasının Nazirlər Kabineti - dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət siyasətinin işlənib hazırlanması və gerçəkləşməsində iştirak edir. Azərbaycan Respublikası qanunlarının, Prezidentin fərmanlarının, Milli Məclisin və Prezidentin digər aktlarının əsasında və onların icra edilməsi üzrə daxili işlər sahəsində idarəetmə məsələləri üzrə qərar və sərəncamlar qəbul edir və onların icra edilməsini yoxlayır, həmçinin qanunçuluğun, vətəndaşların hüquqlarının və azadlıqlarının təmin edilməsi, mülkiyyətin mühafizəsi, cinayətkarlıqla və digər hüquqpozmaları ilə mübarizə üzrə tədbirlər həyata keçirir, eləcə də daxili işlər sahəsində icra hakimiyyəti orqanlarının işlərini birləşdirir və istiqamətləndirir.

İdarəetmənin xüsusi subyektlərindən biri olan daxili işlər orqanları (bundan sonra DİO) bütün fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Prezidentin fərman və sərəncamlarını, hökumətin qərarlarını, DİN-in normativ hüquqi aktlarını rəhbər tutur.

Yuxarıda söylənilən fikirlər daxili işlər sahəsində dövlət idarəetməsinin mahiyyətini açıqlamaqla, bu sahəvi idarəetmənin şəxsiyyətin, cəmiyyətin və dövlətin hüquq və qanuni mənafelərinin qorunmasına xidmət etməsini sübuta yetirir.

***Birinci suala yekun olaraq qeyd etmək olar ki, daxili işlər sahəsində dövlət idarəetməsi*** - ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının mühafizəsi, onların cinayət və digər hüquqazidd qəsdlərdən qorunması, eləcə də dövlət orqanlarının və ictimai qurumların fəaliyyəti, vətəndaşların əməyi və istirahəti üçün normal şəraitin yaradılması üzrə səlahiyyətli dövlət orqanlarının fəaliyyətidir.

Daxili işlər sahəsində idarəetmənin məzmunu - müəyyən edilmiş formalarda və müvafiq metodlarla həyata keçirilən idarəetmə məqsədlərinin, vəzifələrinin və funksiyalarının realizəsi üzrə fəaliyyətdən təşkil edilmişdir.

Daxili işlər sahəsində idarəetmənin əsas məqsədi - ölkədə hüquq qaydasının və qanunçuluğun təmin edilməsindən, vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquq, azadlıq və qanuni mənafelərinin mühafizə edilməsindən ibarətdir.

**Sual 2.** Daxili İşlər Nazirliyi - daxili işlər sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi

Daxili işlər sahəsində dövlət idarəetməsi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmininə, həmçinin cinayətkarlığa qarşı mübarizəyə, insan və vətəndaş hüquqlarının və mülkiyyətin mühafizəsinə yönəlmişdir. DİN ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədi ilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir, cinayətlərin qarşısının alınması və açılması sahəsində profilaktika tədbirlərinin həyata keçirilməsini təmin edir.

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2001-ci il tarixli 518 №-li Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"yə uyğun olaraq Daxili İşlər Nazirliyi - ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Daxili İşlər Nazirliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərarlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "DİN haqqında" Əsasnaməni və DİN-in normativ hüquqi aktlarını rəhbər tutur.

Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasında bütün daxili işlər orqanları sisteminə rəhbərlik edir və DİN-ə həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyində olan bu orqanlar vasitəsilə həyata keçirir.

Ərazi polis orqanlarına rayon, şəhər və şəhərdəki rayon polis idarələri, şöbələri və bölmələri daxildirlər.

İxtisaslaşdırılmış polis orqanlarına DİN-in Nəqliyyatda Baş Polis İdarəsi və onun tabeçiliyində olan su, hava və dəmiryolu nəqliyyatında polis orqanları, yetkinlik yaşına çatmayanların müvəqqəti təcrid etmə mərkəzləri və s. aiddir.

Nizami polis hissələrinə post-patrul xidmətinə aid olan Əlahiddə polis hissələri, Dövlət Yol Polisinin yol-patrul xidməti, Əlahiddə Çevik Polis Alayının post-patrul xidmətləri və s. hissələr aiddir.

DİN-in strukturuna Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən baş idarələr, idarələr, xidmətlər, şöbələr və digər qurumlar daxildir. Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2001-ci il tarixli "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Fərmanına əsasən DİN-in strukturu və sistemi aşağıdakı kimi müəyyən edilmişdir:

**<u>Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu:</u>**

**Rəhbərlik:**

Nazir

***<u>Nazirin birinci müavini</u>***

Nazir müavini

Nazir müavini

Nazir müavini - Daxili Qoşunların komandanı.

Nazir müavini – Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi.

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Aparatı:**

1. Katiblik (baş idarə səlahiyyətli)
2. Baş Təşkilat-İnspeksiya İdarəsi
3. Növbətçi Hissələri İdarəetmə Xidməti (idarə səlahiyyətli)
4. Baş Cinayət Axtarışı İdarəsi
5. Baş İstintaq və Təhqiqat İdarəsi
6. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi
7. Baş Narkotiklərlə Mübarizə İdarəsi
8. Daxili Təhlükəsizlik İdarəsi
9. Xüsusi Əməliyyat-Axtarış Tədbirləri Baş İdarəsi
10. İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi
11. Kriminalistik Tədqiqatlar İdarəsi
12. Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi
13. Baş İctimai Təhlükəsizlik İdarəsi
14. Daxili Qoşunların Baş İdarəsi
15. Nəqliyyatda Baş Polis İdarəsi
16. Baş Dövlət Yol Polisi İdarəsi
17. Baş Mühafizə İdarəsi
18. Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi
19. ***Səfərbərlik İşləri və Mülki Müdafiə İdarəsi***
20. Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu (baş idarə səlahiyyətli)
21. Baş Kadrlar İdarəsi
22. Daxili Təhqiqatlar İdarəsi
23. Şəxsi Heyətlə İş İdarəsi
24. Beynəlxalq Əməkdaşlıq İdarəsi
25. Baş İnformasiya-Kommunikasiya İdarəsi
26. Mətbuat Xidməti (idarə səlahiyyətli)
27. Maliyyə-Plan İdarəsi
28. ***Maddi-Texniki Təminat Baş İdarəsi***
29. Tibb İdarəsi
30. Komendant Xidməti (idarə səlahiyyətli)
31. İdman Cəmiyyəti (idarə səlahiyyətli).

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sisteminə daxil olan qurumlar:**

- Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi
- Daxili Qoşunların hərbi hissə və bölmələri
- Daxili Qoşunların Ali Hərbi Məktəbi
- Polis Akademiyası (baş idarə səlahiyyətli)

- ***Əlahiddə Çevik Polis Alayı və digər nizami polis hissələri***
- Sıravi və kiçik rəis heyəti hazırlayan məktəb
- Nizami polis hissələri
- Bakı Şəhər Baş Polis İdarəsi
- Gəncə Şəhər Baş Polis İdarəsi
- digər ərazi və ixtisaslaşdırılmış polis orqanları və qurumlar

DİN daxili işlər sahəsində dövlət idarəçiliyini həyata keçirir və qanunvericiliklə onun funksiyaları aşağıdakılardır:

1. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkili;
2. cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması, cinayətlərin açılması işinin və istintaqın təşkili;
3. yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işinin təşkili;
4. daxili qoşunların fəaliyyətinin təşkili.

***Sadalanan funksiyaların həyata keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada DİN aşağıdakı vəzifələri yerinə yetirir:***

- ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədi ilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir, cinayətlərin qarşısının alınması və açılması sahəsində profilaktika tədbirlərinin həyata keçirilməsini təmin edir;
- cinayətkarlığın vəziyyətini təhlil edir, kriminogen qurumun operativ və uzun-müddətli proqnozlarını hazırlayır və bu əsasda müvafiq dövlət hakimiyyəti orqanlarına ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlıqla mübarizənin səmərəsinin artırılması və səlahiyyətlərinə aid olan digər məsələlər barədə təkliflər verir, bu sahədə dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak edir;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətinin, daxili işlər orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə təhqiqatın və ibtidai istintaqın, habelə kriminalistik və başqa tədqiqatların aparılmasını təşkil edir;
- “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda dövlət daktiloskopik və genom qeydiyyatının aparılmasını təmin edir, əməliyyat-məlumat, əməliyyat-sorğu, axtarış, kriminalistika, statistika və digər məlumatların, hesabatların məlumat banklarını yaradır, bu banklardakı məlumatların üzərində iş aparılmasını və onlardan istifadəni təşkil edir, arayış-məlumat fəaliyyətini həyata keçirir;
- əldə edilmiş daktiloskopik məlumatların, bioloji material və məlumatların müvafiq olaraq ölkə üzrə vahid daktiloskopik məlumat bankında və DNT məlumat bankında saxlanılmasını təmin edir;
- cinayətlərin vahid statistikasının və Nazirlik sistemində statistikanın aparılmasını təşkil edir, məlumatların işlənməsi və ötürülməsi üzrə avtomatlaşdırılmış sistemin inkişaf etdirilməsini və təkmilləşdirilməsini həyata keçirir, sənədlərin arxivdə saxlanılmasını təmin edir;
- təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən və cəzadan, habelə probasiya nəzarətindən yayınanların axtarışını, xəbərsiz itkin düşmüş şəxslərin, şəxsiyyətinin tanınması mümkün olmayan meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi işini, habelə oğurlanmış əmlakın axtarılmasını təşkil edir və həyata keçirir;
- daxili işlər orqanlarında təhqiqatın və istintaqın aparılması üzrə təşkilati-metodiki vasitələrin, Nazirlik sistemi üçün digər təlimatların hazırlanmasını təşkil edir;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqat, istintaq orqanlarının, məhkəmələrin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin icra və probasiya qurumlarının qərarlarının icrası işini təşkil edir;
- Azərbaycan Respublikası qanunvericiliyi ilə daxili işlər orqanlarının səlahiyyətinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxılmasını, habelə xüsusi icazələrin (lisenziyaların) verilməsini təşkil edir;
- daxili işlər orqanlarının səlahiyyətinə aid olan işlərin - Azərbaycan Respublikası vətəndaşlığına qəbul, vətəndaşlığa bərpa və vətəndaşlığa xitam verilməsi məsələlərinin həllində iştirak edir, vətəndaşlara pasportların və şəxsiyyət vəsiqələrinin verilməsini, yaşayış və olduğu yer üzrə qeydiyyat işini və bu məsələlərə dair mərkəzləşdirilmiş uçot sistemini təşkil edir;
- aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə qanunsuz miqrasiyanın qarşısının alınması ilə bağlı tədbirləri həyata keçirir;
- yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə daxili işlər orqanlarına həvalə edilən məsələləri həll edir, o cümlədən yetkinlik yaşına çatmayanların baxımsızlığının qarşısının alınmasında digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edir;
- uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair monitorinqlər aparılmasında iştirak edir;

- Nazirliyin qanun əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlayır;
- müqavilə əsasında mülkiyyətçilərin əmlakının mühafizəsi işini təşkil edir, ölkə ərazisində yerləşən xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəliklərinin təhlükəsizliyinin təmin olunmasında iştirak edir;
- sahibsiz əmlakın, tapılmış dəfinələrin, sənədlərin və əşyaların saxlanılması və mühafizəsi işini təşkil edir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallarda və qaydada cinayət işi üzrə zərər çəkən şəxslərin, şahidlərin və cinayət prosesinin digər iştirakçılarının, habelə məhkəmə və hüquq dövlət mühafizə orqanları işçilərinin və onların yaxın qohumlarının dövlət müdafiəsi və əmlakının mühafizəsi işinin təşkilində iştirak edir;
- Azərbaycan Respublikasının qanunvericiliyi əsasında və beynəlxalq normalara uyğun olaraq İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosunun fəaliyyətini təşkil edir;
- yol hərəkəti təhlükəsizliyinə aid qaydaların, standartların və texniki normaların işlənib hazırlanmasında iştirak edir;
- "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, dövlət avtomobil yollarında parklanma yerlərini müəyyən edir, bələdiyyə və özəl avtomobil yollarında parklanma yerlərinin təşkil edilməsində iştirak edir;
- avtonəqliyyat vasitələrinin və qoşquların dövlət texniki baxışının və qeydiyyatının keçirilməsini, onlara dövlət nömrə nişanlarının verilməsini, habelə yol hərəkəti qaydaları və sürücülük vərdişləri üzrə imtahanlar qəbul edilməsini və nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqələrinin verilməsini təşkil edir, yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə qeydiyyatın, təhqiqatın

və istintaqın aparılmasını təmin edir, yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin vahid dövlət uçotunu müəyyən edir və hesabatını aparır;

- avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin (standart sığorta müqaviləsi növünə münasibətdə), habelə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin fərdi qəza sığortası üzrə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığortalanmasına nəzarət edir;
- Nazirlik sistemində rabitə sisteminin və vasitələrinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi və məlumat təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görür;
- daxili təhqiqatların aparılmasını təşkil edir;
- daxili qoşunlar tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələrin icrasını təşkil edir;
- daxili qoşunların inkişaf, səfərbərlik, yerləşdirmə, tətbiq planları, ştatları, strukturu və sayı barədə təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;
- daxili işlər orqanlarının və daxili qoşunların fəaliyyətini əlaqələndirir;
- Azərbaycan Respublikasının bütün ərazisində və ya onun ayrı-ayrı yerlərində tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təminində, fövqəladə halların qarşısının alınmasını və onların aradan qaldırılması üzrə vahid dövlət tədbirlərinin, həmçinin karantin tədbirlərinin həyata keçirilməsində iştirak edir;
- səlahiyyətləri çərçivəsində mülki müdafiə və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak edir;
- səlahiyyətinə aid məsələlər üzrə Azərbaycan Respublikası qanunvericiliyinin tətbiqi praktikasını ümumiləşdirir, daxili işlər orqanlarına və daxili qoşunlara normativ hüquqi işin təşkilində praktiki və metodiki kömək göstərir, hüquqi biliklərin təbliğini təşkil edir;
- elmi tədqiqat işlərinin keçirilməsini, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin daxili işlər orqanlarında tətbiqini təmin edir;
- daxili işlər orqanlarının və daxili qoşunların kadr təminatı proqramını hazırlayır və həyata keçirir, Nazirliyin, digər dövlət orqanlarının və xarici ölkələrin təhsil müəssisələrində kadrların hazırlanmasını, əməkdaşların əlavə təhsilini və mənəvi-psixoloji hazırlığını təmin edir;
- daxili işlər orqanları əməkdaşlarının, hərbi qulluqçuların, Nazirlik sistemi işçilərinin və təqaüdçülərinin, həmçinin onların ailə üzvlərinin sağlamlığının mühafizəsi istiqamətində kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər tədbirləri hazırlayır və həyata keçirir, daxili işlər orqanları əməkdaşlarının, hərbi qulluqçuların, digər işçilərin sosial müdafiəsini təmin edir;
- səlahiyyətləri çərçivəsində hərbi daşımaları həyata keçirir, daxili işlər orqanlarının və daxili qoşunların hərbi və xüsusi texnika, rabitə vasitələri, xüsusi vasitələr, silah, sursat və digər maddi-texniki ehtiyatlarla təmin edilməsini, dövlət büdcəsi və sair mənbələrdən maliyyələşməsini təmin edir;
- qanunvericiliyə uyğun olaraq tabeliyində olan dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirir;
- səlahiyyətləri çərçivəsində obyektlərin əsaslı tikintisini, layihə-tədqiqat işlərinin aparılmasını təşkil edir, əməkdaşların və hərbi qulluqçuların mənzillə təmin edilməsi, onların yerləşdirilməsi və məişət təminatının yaxşılaşdırılması üçün tədbirlər görür;
- Azərbaycan Respublikasının hüquq mühafizə və digər dövlət və bələdiyyə orqanları ilə daxili işlər orqanlarının və daxili qoşunların qarşılıqlı fəaliyyətini təmin edir;

- daxili işlər orqanlarının və daxili qoşunların fəaliyyətinə dair vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətlərin qəbulu, qeydiyyatı və baxılması, vətəndaşların qəbulu işini təşkil edir;
- ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması, cinayətkarlıqla mübarizə məsələlərinə dair əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini və nəşriyyat fəaliyyətinin həyata keçirilməsini təmin edir, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəni təşkil edir, yayılan məlumatlar üzrə müvafiq qərarlar qəbul edir;
- ictimai asayişin qorunmasında vətəndaşların iştirakını təşkil edir;
- qarşısına qoyulmuş vəzifələri yerinə yetirmək üçün digər hüquq mühafizə orqanları ilə əməkdaşlıq edir.
- öz səlahiyyətləri daxilində penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri həyata keçirir;
- hərbi-tətbiqi və xidməti-tətbiqi idman növlərinin inkişafı proqramlarını, bədən tərbiyəsi və idman tədbirlərinin təqvim planlarını, hərbi idman kompleksinin normativlərini təsdiq edir.
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

- ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hüquqları həyata keçirmək;
- əməliyyat-axtarış, təhqiqat, ibtidai istintaq və kriminalistik tədqiqat fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hüquqları həyata keçirmək;
- daxili işlər orqanlarının və daxili qoşunların fəaliyyətinə dair qanun və digər normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onların təkmilləşdirilməsi barədə təkliflər vermək, öz fəaliyyətinin normativ tənzimlənməsini həyata keçirmək;
- səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Azərbaycan Respublikasının qanunvericilik aktlarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin daxili işlər orqanları və daxili qoşunlar tərəfindən icrasına nəzarət etmək;
- müvəqqəti saxlanılma yerlərində xidmətin təşkilinə nəzarət etmək;
- xüsusi icazə (lisenziya) verilməsi sahəsində daxili işlər orqanlarının səlahiyyətinə aid edilmiş fəaliyyətin həyata keçirilməsinə nəzarət etmək;
- aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə miqrasiya sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hüquqları həyata keçirmək;
- yaşayış yeri və olduğu yer üzrə qeydiyyat qaydalarına riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək;
- yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirmək;
- yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə inzibati icraatın həyata keçirilməsini və tənbehlərin tətbiqini təşkil etmək, avtonəqliyyat vasitələrinin və qoşquların dövlət texniki vəziyyətinə nəzarəti təmin etmək;
- xidməti və mülki silahın dövriyyəsinə və döyüş sursatının saxlanılması qaydalarına riayət olunmasına nəzarət etmək;

➢ *öz səlahiyyətləri daxilində özəl mühafizə fəaliyyətinə, eləcə də bu fəaliyyət çərçivəsində xüsusi vasitələrin dövriyyəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət etmək;*

➢ mülkiyyətçilərin əmlakının qorunması sahəsində tam təsərrüfat hesabı əsasında fəaliyyət göstərmək, müqavilələr bağlamaq, mühafizənin texniki vasitələrinin istehsalı üçün ixtisaslaşan müəssisələr yaratmaq;

➢ *vətəndaşları ictimai asayişin qorunmasına cəlb etmək və onlarla əməkdaşlıq haqqında müqavilə bağlamaq;*

➢ daxili işlər orqanlarını və daxili qoşunları insanların xilas edilməsi üzrə təxirəsalınmaz tədbirlərin keçirilməsi, ağır və irimiqyaslı qəzaların, yanğınların, təbii fəlakətlərin, kütləvi iğtişaşların və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı ictimai qaydanın təmin olunması işinə, həmçinin digər xüsusi əməliyyatların və tədbirlərin keçirilməsinə cəlb etmək, onların qüvvə və vasitələrinin operativ idarə olunmasını həyata keçirmək;

➢ Nazirlik sisteminə daxil olan orqan və hissələrin, müəssisələrin və təşkilatların fəaliyyətini yoxlamaq və təftişini həyata keçirmək;

➢ Nazirlik sistemi əməkdaşlarının Nazirliyin təhsil müəssisələrinə qəbul imtahanlarını keçirmək, bu təhsil müəssisələrinə rəhbərlik etmək;

➢ Nazirliyin tabeliyində olan müalicə, profilaktika və sanatoriya-kurort müəssisələr tərəfindən yerinə yetirilən xidmətlərə ("Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"yə uyğun olaraq pulsuz tibb xidməti almaq hüququ olan, habelə sanatoriya-kurort müəssisələrində imtiyazlı istirahət hüququ olan şəxslərə göstərilən xidmətlər istisna olmaqla) ödənişlərin tətbiq edilməsinə razılıq vermək;

➢ Nazirlik sistemində maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək;

➢ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sərəncamında olan dövlət əmlakı barəsində hüquqları həyata keçirmək;

➢ daxili işlər orqanlarının və daxili qoşunların fəaliyyətinə dair qəzetlər, jurnallar, bülletenlər, normativ hüquqi aktlar toplusu, digər materiallar nəşr etmək;

➢ müvafiq beynəlxalq təşkilatlarla, xarici ölkələrin hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqələri həyata keçirmək, səlahiyyətinə aid məsələlərin həlli üçün xarici dövlətlərə və beynəlxalq təşkilatlara öz nümayəndələrini göndərmək;

➢ öz səlahiyyətlərinə aid edilən məsələlərə dair məhkəmələrdə iddia ilə çıxış etmək.

➢ Qanunvericiliklə müəyyən edilən digər hüquqları həyata keçirmək.

Daxili İşlər Nazirliyinin fəaliyyətinin təşkili haqqında danışarkən qeyd olunmalıdır ki, DİN-ə daxili işlər naziri rəhbərlik edir. O, Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur. Daxili İşlər nazirinin birinci müavini və müavinləri nazirin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad edilirlər.

***<u>Azərbaycan Respublikasının daxili işlər nazirinin səlahiyyətlərinə aiddir:</u>***

- Nazirliyin işini təşkil edir və təkbaşçılıq prinsipi əsasında daxili işlər orqanlarının və daxili qoşunların fəaliyyətinə rəhbərlik edir;
- müavinləri arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dərəcəsini və səlahiyyətlərini müəyyən edir, Nazirlik sisteminin digər vəzifəli şəxslərin operativ,

təşkilati-ştat, kadr, maliyyə, təsərrüfat-istehsalat və Nazirliyin vəzifələrinə aid digər məsələlər üzrə müstəqil qərar qəbul etmək səlahiyyətlərini müəyyən edir;

- Nazirliyin aparatının struktur bölmələrinin və tabeliyində olan qurumların əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq edilməsi üçün müəyyən olunmuş qaydada təqdim edir;
- Nazirlik sisteminə daxil olan xidmətlərin, o cümlədən baş idarələrin, şəhər, rayon polis orqanlarının yaradılması və ləğv edilməsinə dair Azərbaycan Respublikası Prezidentinə təkliflər verir;
- müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının və tabeliyində olan qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir, habelə Nazirliyin daxili nizam qaydalarını müəyyən edir;
- Nazirlik sistemində icrası məcburi olan əmrlər verir, əsasnamələri, nizamnamələri, təlimatları, qaydaları, standartları, normaları və digər normativ hüquqi aktları təsdiq edir, habelə dövlət hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə və ya onlarla razılaşdırılmış əmrlər, sərəncamlar, göstərişlər verir, onların icrasına nəzarəti təşkil edir;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sıravi və rəis heyəti vəzifələrinin, bu vəzifələrə uyğun xüsusi rütbə hədlərinin siyahısını təsdiq edir;
- vəzifəyə təyin və vəzifədən azad etmə ilə bağlı Nazirliyin vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir və müvafiq siyahı (nomenklatur) təsdiq edir;
- daxili işlər orqanlarının vəzifəli şəxslərinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına zidd olan əmr və göstərişlərini ləğv edir;
- dövlət büdcəsi vəsaiti hesabına saxlanılan orqanların limit sayı haqqında təkliflər verir;
- daxili işlər orqanlarına və daxili qoşunlara həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün müvəqqəti strukturların yaradılması və ləğv edilməsi qaydalarını müəyyən edir;
- daxili qoşunların hərbi şurasının tərkibini müəyyən edir;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada daxili işlər orqanlarını əməkdaşlarını və hərbi qulluqçuları Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarına ezam edir;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada daxili işlər orqanların və daxili qoşunların şəxsi heyətini vəzifəyə təyin və vəzifədən azad edir, sıravi, kiçik, orta və böyük rəis heyətlərinə xüsusi rütbələr, Polis Akademiyasının məzunlarına ilkin zabit hərbi rütbəsi və daxili qoşunların hərbi qulluqçularına hərbi rütbələr verir, xüsusi və hərbi rütbələrdən məhrum edir, ali hərbi və ali heyət rütbələrinin verilməsi barədə Azərbaycan Respublikasının Prezidenti qarşısında vəsatət qaldırır, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Nazirliyin baş idarə və idarələrinin, ərazi və ixtisaslaşmış polis idarə və şöbələrinin rəislərini vəzifəyə təyin və vəzifədən azad edir;
- Polis Akademiyası rəisinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir, Polis Akademiyası rəisinin müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir;
- Polis Akademiyası rəisinin təqdimatı ilə Akademiyanın Elmi Şurasının tərkibini təsdiq edir;

- Nazirlik sisteminə işə götürülən digər işçilərlə əmək müqavilələrinin, ictimai asayişin qorunmasına cəlb edilən şəxslərlə müqavilələrin bağlanılması və onlara xitam verilməsi məsələlərinə dair Nazirliyin vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir;
- daxili işlər orqanları əməkdaşlarını və hərbi qulluqçuları, habelə ictimai asayişin qorunmasına cəlb edilən şəxsləri Azərbaycan Respublikasının dövlət mükafatlarına təqdim edir, qanunvericiliklə müəyyən olunmuş qaydada səlahiyyətləri çərçivəsində medallarla təltif edir;
- daxili işlər orqanları əməkdaşlarının, hərbi qulluqçuların və Nazirlik sistemi işçilərinin, habelə Nazirliyin üzərinə qoyulmuş vəzifələrin həyata keçirilməsinə kömək göstərmiş şəxslərin təltif olunmaları üçün müəyyən olunmuş qaydada döş nişanlarını təsis edir, onların təsvirini və əsasnaməsini təsdiq edir, həmin şəxsləri döş nişanları, fəxri fərmanlarla təltif edir, habelə normativ hüquqi aktlarla nəzərdə tutulmuş digər həvəsləndirmə növlərini tətbiq edir;
- Nazirlik sistemində geyim formasının, fərqlənmə nişanlarının və digər rəmzlərin təsis edilməsi barədə Azərbaycan Respublikası Prezidentinə təkliflər verir,Nazirliyin tabeliyindəki müvafiq struktur qurumlarına şərti adlar verir və tanınma nişanlarının təsvirini təsdiq edir;
- daxili işlər orqanları əməkdaşlarının, hərbi qulluqçuların, Nazirlik sisteminin digər işçilərinin, habelə Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə kömək göstərmiş digər şəxslərin təltif olunmaları üçün hədiyyə və mükafatlandırma, o cümlədən silah fondları yaradır;
- daxili işlər orqanları əməkdaşları, hərbi qulluqçular və Nazirlik sisteminin digər işçiləri barədə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş həcmdə intizam tənbehi tədbirləri tətbiq edir;
- səlahiyyətləri daxilində daxili işlər orqanları əməkdaşlarını və hərbi qulluqçuları xidmətdən (hərbi xidmətdən) xaric edir;
- dövlət büdcəsindən ayrılan və bücədənkənar vəsaitin, o cümlədən xarici valyutanın sərəncamçısı olmaqla maliyyə vəsaitini tabeliyindəki qurumlar arasında bölüşdürür, xərclənməsinin həcmini və qaydalarını müəyyən edir, xidmətin xüsusatları və ayrılmış məbləğin həddi nəzərə alınmaqla, daxili işlər orqanlarının sıravi və rəis heyətinin, hərbi qulluqçularının vəzifə maaşlarına əlavə təyin edir, maddi yardım və mükafatlar verir, bu səlahiyyətləri başqa vəzifəli şəxslərə həvalə edir, müvafiq vəzifələr üzrə imtiyazların müəyyən edilməsi barədə təkliflər verir;
- təbii fəlakət, fövqəladə vəziyyət şəraitində və ya ayrı-ayrı hallarda, eləcə də birdəfəlik təcili tapşırıqların yerinə yetirilməsi zamanı daxili işlər orqanları əməkdaşları və hərbi qulluqçuları üçün müvəqqəti ərzaq payı normalarını müəyyən edir;
- Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatları ilə münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq müqavilələri, sazişləri və protokolları imzalayır;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir və Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə şəxsi məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Daxili İşlər naziri öz səlahiyyətlərinin həyata keçirilməsini nazirin birinci müavininə, o olmadıqda nazir müavinlərindən birinə tapşıra bilər.

**Suala yekun olaraq bildirmək istəyirik ki,** daxili işlər sahəsində dövlət idarəetməsi respublika ərazisində hüquqpozmaların qarşısının alınmasına, qanunçuluğun qorun-

masına, ictimai asayişin mühafizəsinə yönəlmişdir. Daxili işlər orqanlarının bilavasitə idarə olunması Daxili İşlər Nazirliyinə həvalə edilmişdir.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır".

Daxili İşlər Nazirliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərarlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "DİN haqqında" Əsasnaməni və DİN-in normativ hüquqi aktlarını rəhbər tutur.

İnzibati hüquq fənni üzrə 5-ci mövzuda icra hakimiyyəti orqanlarının strukturu haqqında danışarkən qeyd etmişdik ki, icra hakimiyyəti orqanının bir növü kimi mərkəzi icra hakimiyyəti orqanları aidiyyati struktura malikdir. Həmin struktur elementlərin sırasında ilk rast gəlinəni (vacibi) rəhbərlikdir. Rəhbərlik orqanın idarə heyətindən və kollegiyasından təşkil edilir. Beləliklə, respublikamızda mərkəzi icra hakimiyyəti orqanı olan DİN-in struktur elementi kimi onun kollegiyası da qeyd olunmalıdır.

Qeyd edilənlər ilə yanaşı bildirmək istəyirik ki, daxili işlər sahəsində dövlət idarəetməsinin təşkil edilməsində vacib elementlərdən biri də səlahiyyətli orqanın fəaliyyətinin (təşkilatdaxili) formalaşdırılmasıdır. **Buna Daxili İşlər Nazirliyində DİN-in rəhbər işçilərindən ibarət məşvərətçi orqan olan kollegiyanın yaradılması aiddir.** DİN-in Kollegiyasının tərkibi Azərbaycan Respublikasının Prezidentinin 1 may 2002-ci il tarixli 906 №-li Sərəncamı ilə aşağıdakı tərkibdə təsdiq edilmişdir:

**Kollegiyanın sədri:**

*Azərbaycan Respublikasının daxili işlər naziri*

**Kollegiyanın üzvləri:**

- Azərbaycan Respublikası daxili işlər nazirinin I müavini
- Azərbaycan Respublikası daxili işlər nazirinin müavinləri
- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, daxili qoşunların komandanı
- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini - Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi
- Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinin rəisi
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin rəisi
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi
- Bakı şəhər Baş Polis İdarəsinin rəisi.

DİN-in kollegiya iclasında daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətləri, ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin və icra intizamının vəziyyəti, kadr məsələləri, əmrlərin və digər aktların layihələri müzakirə edilir, daxili işlər orqanlarının vəzifəli şəxslərinin hesabatları dinlə-

nilir, DİN-in fəaliyyəti ilə bağlı digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar çıxarılır.

Nəzərə alınması zəruridir ki, qanunvericilik baxımından Kollegiya üzvləri müzakirə edilən məsələlərə dair qərar qəbul edərkən səsverməyə bərabər hüquqlara malikdirlər. Kollegiyanın qərarları onun üzvlərinin sadə və səs çoxluğu ilə qəbul edilir, nazirin əmri ilə elan olunur və həyata keçirilir. Kollegiyanın sədri və kollegiya üzvləri arasında fikir ayrılığı olduqda kollegiyanın sədri öz əsaslandırılmış qərarını həyata keçirir və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat verir.

**Suala yekun olaraq bildirmək istəyirik ki,** Azərbaycan Respublikası Prezidentinin 1 may 2002-ci il tarixli 906 №-li Sərəncamı ilə DİN-in kollegiyası formalaşdırılıb. DİN-in Kollegiyasında DİO-nun fəaliyyətinin əsas istiqamətləri, ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə, icra intizamı, kadr məsələləri, normativ hüquqi aktların layihələri və s. kimi məsələlər müzakirə edilməklə aidiyyəti qərarlar qəbul edilir. Kollegiya qərarları nazirin əmri ilə bütün şəxsi heyətə elan edilir.

**Sual 3.** Daxili işlər orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri

Daxili İşlər Nazirliyi sisteminə daxil olan bütün orqan və hissələrdə xidmət keçmənin qaydaları və şərtləri, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsasları Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə tənzimlənir. Qanunvericinin mövqeyinə görə polisdə və DİN sisteminə daxil olan digər orqan və hissələrdə xidmət keçmənin qaydaları və şərtləri, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsasları adı çəkilən əsasnamə ilə müəyyən edilir.

Daxili işlər orqanlarında xidmət keçmə - daxili işlər orqanlarının funksiya, vəzifə və hüquqlarını öz peşə fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növüdür.

Daxili işlər orqanında xidmət keçmə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və "Polis haqqında" Azərbaycan Respublikasının Qanunundan, Daxili İşlər orqanlarında xidmət keçmə haqqında Əsasnamədən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

Daxili işlər orqanlarında işləyən şəxslər arasında xidməti münasibətlərin tənzimlənməsi, onların xidmət müddətinin və ixtisas keyfiyyətlərinin müəyyən olunması məqsədi ilə, bu orqanlarda sıravi heyət, kiçik, orta, böyük və ali rəis heyəti vəzifələri və xüsusi rütbələr müəyyən olunur.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən, xüsusi rütbələr verilmiş, sıravi və kiçik, orta, böyük, ali rəis heyəti vəzifələrində işləyən və ya daxili işlər orqanlarının kadrlarında olan Azərbaycan Respublikasının vətəndaşları, habelə DİN-in təhsil müəssisəsinin müdavimləri daxili işlər orqanlarının əməkdaşları hesab olunurlar.

Daxili işlər orqanlarının əməkdaşları dövlət hesabına geyim forması və fərqlənmə nişanları ilə təmin olunurlar. Geyim formasının və fərqlənmə nişanlarının təsviri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Daxili işlər orqanlarının əməkdaşlarına nümunələri Azərbaycan Respublikasının DİN tərəfindən müəyyən edilmiş xidməti vəsiqələr verilir.

Daxili işlər orqanlarının əməkdaşları xüsusi hazırlıq keçdikdən sonra qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvəni, xüsusi vasitələri və odlu silahı tətbiq etmək hüququna malikdirlər. Xüsusi vasitələrin və odlu silahın verilməsi, saxlanılması və gəzdirilməsi qaydaları DİN tərəfindən müəyyən edilir.

Daxili işlər orqanlarında xidmət keçmə hər bir əməkdaşın şəxsi işində öz əksini tapır. Şəxsi iş daxili işlər orqanlarının kadr xidmətləri tərəfindən hazırlanır, aparılır və saxlanılır.

Daxili işlər orqanlarında sıravi və rəis heyəti vəzifələrinə təyin olunan şəxslərə xüsusi rütbələr verilir.

Daxili işlər orqanları rəis heyətinin əməkdaşları xidmətdən xaric edildikdə "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 135-ci maddəsinin 2-4, 7, 9 və 10-cu bəndlərinə müvafiq daxili işlər orqanlarından xaric edilənlər istisna olmaqla, mövcud rütbəyə "istefada olan" sözləri əlavə edilir.

Daxili işlər orqanlarında xidmətə könüllülük əsasında, şəxsi keyfiyyətlərinə, fiziki və peşə hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə bu orqanlarda xidmətə yararlı olan, habelə hərbi xidmət keçmiş və hərbi mükəlləfiyyətli (qadınlar istisna olmaqla), Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən, yaşı 20-dən aşağı və bir qayda olaraq yaşı 30-dan yuxarı olmayan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyət olmayan və ya məhdud fəaliyyəti hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, əvvəllər işdə yol verdiyi ciddi nöqsanlara, daxili işlər orqanlarında xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olmasına, xidmətə tam yararsız olmasına, daxili işlər orqanlarının əməkdaşı adına ləkə gətirən hərəkətlərə görə daxili işlər və digər hüquq-mühafizə orqanlarından xaric edilmiş şəxslər daxili işlər orqanlarında xidmətə qəbul oluna bilməzlər.

Daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə yalnız orta və orta ixtisas təhsilli şəxslər qəbul edilirlər.

Orta və böyük rəis heyəti vəzifələrində xidmətə bir qayda olaraq xüsusi, orta ixtisas ali hüquq təhsilli şəxslər qəbul edilirlər.

Digər ixtisasları olan şəxslərin xidmətə qəbulu DİN tərəfindən müəyyən edilmiş qaydalara uyğun həyata keçirilir.

Daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslər “Polis haqqında” Qanunun 29-cu maddəsində göstərilmiş məzmunda və DİN tərəfindən müəyyən edilmiş qaydada and içirlər.

Sıravi və kiçik, orta və böyük rəis heyəti vəzifələrinə təyin olunma və bu vəzifələrdən azad edilmə DİN tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Daxili işlər orqanları əməkdaşlarının təminat xərclərinə tutduğu vəzifəyə və xüsusi rütbəyə görə maaşları, fasiləsiz xidməti illərinə görə haqq, məharət dərəcəsinə görə verilən əlavə ərzaq payı və ya ərzaq payı əvəzinə verilən pul kompensasiyası, digər müavinət və ödənişlər daxildir.

Daxili işlər orqanları əməkdaşlarının həyat və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına sığortalanır.

Daxili işlər orqanlarında xidməti intizam - əməkdaşlar tərəfindən onlara həvalə olunmuş vəzifələrin icrasından və öz səlahiyyətlərini həyata keçirən zaman Azərbaycan Respublikasının qanunvericiliyinə, vəzifə təlimatlarına, habelə DİN-in və bilavasitə rəislərin əmr və göstərişlərinə əməl etməkdən ibarətdir.

Qeyd edilməsi vacibdir ki, təcrübə göstərir ki, daxili işlər orqanlarının fəaliyyətinin effektivliyi xidməti intizamla da üzvü surətdə bağlıdır. Təsadüfi deyildir ki, DİO əməkdaşlarının xidməti intizama riayət etmələri rəhbərlik səviyyəsində hər zaman diqqətdə saxlanılır. Bu məqsədlə DİO rəhbərləri tərəfindən davamlı fəaliyyət həyata keçirilir. Hesab edirik ki, bu yönümdə nəzərə alınmalı məqamlardan biri də gündəlik fəaliyyət prosesində xidməti vəzifələrin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə

edilən yüksək nəticələrə görə daxili işlər orqanlarının əməkdaşlarının həvəsləndirilməsi tədbirlərinin məqsədəuyğunluq və qanunçuluq prinsiplərinin uzlaşdırılması yolu ilə tətbiq edilməsidir.

Xidməti vəzifələrin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə edilən yüksək nəticələrə görə daxili işlər orqanlarının əməkdaşları üçün aşağıdakı həvəsləndirmə növləri tətbiq oluna bilər:

1) təşəkkür;

2) pul mükafatı;

3) qiymətli hədiyyə ilə mükafatlandırılma;

4) fəxri fərman ilə təltif edilmə;

5) fəxri döş nişanı ilə təltif edilmə;

6) vaxtından əvvəl növbəti xüsusi rütbənin verilməsi;

7) xüsusi rütbənin vəzifə ştatında nəzərdə tutulduğundan bir pillə yuxarı verilməsi;

8) təltif silahının verilməsi.

Həvəsləndirmə növlərinin tətbiqi qaydaları DİN tərəfindən müəyyən edilir. Həvəsləndirmə tədbiri kimi əvvəllər verilmiş intizam tənbehinin vaxtından əvvəl geri götürülməsi tətbiq oluna bilər.

Xidməti intizam qaydalarını pozmağa görə daxili işlər orqanlarının əməkdaşlarına aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər.

1) məzəmmət;

2) töhmət;

3) şiddətli töhmət;

4) xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;

5) tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə;

6) xüsusi rütbənin bir pillə aşağı salınması;

7) xidmətdən xaric edilmə.

Həvəsləndirmə tədbirləri və intizam tənbehləri, daxili işlər orqanlarının vəzifəli şəxsləri tərəfindən onlara verilən səlahiyyətlər hüququnda tətbiq edilir.

Xidməti intizam qaydalarının pozulmasına görə yalnız bir intizam tənbehi verilir. Həvəsləndirmə tədbiri kimi intizam tənbehinin vaxtından əvvəl götürülməsi, tənbehi vermiş rəis, yaxud ona bərabər vəzifəli və ya vəzifəcə böyük birbaşa rəis tərəfindən həyata keçirilir.

Həvəsləndirmə tədbirlərinin və intizam tənbehinin tətbiqində verilən hüquqların həddini aşan vəzifəli şəxs məsuliyyət daşıyır.

Daxili işlər orqanlarının əməkdaşı aşağıdakı hallarda xidmətdən xaric edilə bilər:

1) öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxmaq barəsində yazılı ərizə verildikdə;

2) and içməkdən imtina etdikdə;

3) cinayət törətdiyinə görə barəsində qanuni qüvvəyə minmiş məhkəmənin ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqi haqqında qərar olduqda;

4) daxili işlər orqanlarında xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda;

5) xidmətdə olmanın son yaş həddinə çatdıqda;

6) səhhətinə görə, o cümlədən 4 aydan artıq müddətli xəstəliklə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə tibbi-həkim komissiyasının rəyi olduqda;

7) daxili işlər orqanlarında xidmətə tam yararsız olması barəsində attestasiya komissiyasının rəyi olduqda;

8) başqa dövlətin vətəndaşlığını qəbul etdikdə, Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

9) daxili işlər orqanları əməkdaşı adına ləkə gətirən hərəkət etdikdə;

10) intizam məsuliyyətinə cəlb edildikdən sonra xidmət və icra intizamını il ərzində yenidən kobudcasına pozduqda;

11) ştatlar ixtisar edildikdə;

12) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə qaydasında müəyyənləşdirildikdə;

13) digər hüquq-mühafizə orqanlarına işə keçdikdə.

Xidmətdən xaric edilən daxili işlər orqanları əməkdaşlarına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müavinət verilir.

**Bir daha vurğulanması vacibdir ki,** Daxili İşlər Nazirliyi sisteminə daxil olan bütün orqan və hissələrdə xidmət keçmənin qaydaları və şərtləri, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsasları qanunla təsdiq edilmiş “Daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə tənzimlənir. Daxili işlər orqanlarında xidmət keçmə - daxili işlər orqanlarının funksiya, vəzifə və hüquqlarını öz peşə fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növüdür. *Daxili işlər orqanında xidmət keçmə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və “Polis haqqında” Azərbaycan Respublikasının Qanunundan, Daxili İşlər orqanlarında xidmət keçmə haqqında Əsasnamədən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.*

## Nəticə

Dünyada gedən qloballaşma prosesində dünya dövlətlərinin ortaq nöqtəyə gəldikləri mülahizələr arasında şəxsiyyətin, cəmiyyətin və dövlətin ən ali dəyərlər kimi mühafizəsi xüsusi əhəmiyyət kəsb edir. Adları çəkilən dəyərlərin mühafizəsi məqsədilə respublikamızda səlahiyyətli orqan olan DİN tərəfindən həyata keçirilən dövlət idarəetməsi xüsusilə qeyd olunmalıdır. Daxili işlər sahəsində dövlət idarəetməsi siyasətini həyata keçirən qurum olan DİN mərkəzi icra hakimiyyəti orqanları arasında özünəməxsus yer tutur.

Daxili İşlər Nazirliyi qanunvericiliyə əsasən ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin mühafizəsi və cinayətkarlığa qarşı mübarizənin aparılması üçün xüsusi mandat verilmiş mərkəzi icra hakimiyyəti orqanıdır.

Mühazirəmizin birinci sualından aydın oldu ki, daxili işlər orqanları təyinatı baxımından insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, dövlətin, eləcə də fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətlərini hüquqazidd əməllərdən qorumaq üçün fəaliyyət göstərən xüsusi qurumlardır.

Mühazirəmizin ikinci sualının məzmunundan aydın olur ki, daxili işlər sahəsində dövlət idarəetməsi respublika ərazisində hüquqpozmaların qarşısının alınmasına, qanunçuluğun qorunmasına, ictimai asayişin mühafizəsinə yönəlmişdir. Sualın məzmunundan aydın olur ki, daxili işlər sahəsində dövlət idarəetməsinin təşkili zamanı Azərbaycan Respublikasının Prezidenti tərəfindən DİN-in rəhbər heyətindən ibarət olan məşvərətçi orqan yaradılıb. Həmin orqanda DİN-in fəaliyyətinin əsas istiqamətləri müzakirə olunaraq, aidiyyəti qərarlar qəbil edilir.

Mühazirəmizin üçüncü sualının təhlilindən aydın oldu ki, daxili işlər orqanlarında qulluq dövlət qulluğunun xüsusi bir növüdür. Bu baxımdan daxili işlər orqanlarında xidmətə qəbul qaydaları və onun aparılması digər qurumlara xidmətə qəbul və onun aparılmasından spesifikliyinə görə fərqlənir.